**Respublika mətbuatının səhifələrində**

## Yayı da gözəldir, qışı da...

*Dağların, sıldırım qayaların, meşələrin əhatəsində salınan bu məkana - Duruca kəndinə insanlar adətən yay aylarında üz tutardılar. Qışda burada tək-tək adamlara nadir hallarda rast gəlmək olardı. Son dövrlər Qəbələ rayonunda, o cümlədən bu kənddə və ərazidə aparılan quruculuq işləri sayəsində mənzərə tamamilə dəyişib. Tufandağ Qış-Yay Turizm Kompleksi istifadəyə veriləndən sonra burada dincəlmək, təbiətin seyrinə çıxmaq üçün hər cür şərait yaradılıb. Yay aylarında dağlarda kanatla gəzinti insanlara zövq verir. Qış mövsümündə yeni xizək sürməyə başlayanlar və orta dərəcədə xizək sürənlər üçün yaşıl və mavi xizək yamacları, professional xizək sürənlər üçün qırmızı və qara rəngli yamaclar fəaliyyət göstərir. Buna görə də rayon mərkəzindən 4 kilometr məsafədə yerləşən bu məkanda ilin bütün fəsillərində qələbəlik olur.*

***«Azərbaycan» qəzeti, 6 noyabr 2018-ci il. Foto A. MƏMMƏDOVUNDUR.***



# Qəbələ rayonunun sosial-iqtisadi inkişafı haqqında məlumat

Ölkənin bütün bölgələrində olduğu kimi, 2018-ci ilin doqquz ayında Qəbələ rayonunun da iqtisadiyyatında və sosial-mədəni həyatında nəzərəçarpacaq müvəffəqiyyətlər əldə edilmiş, iqtisadiyyatın bütün sahələrində istehsalın həcmi artmış, yeni təsərrüfat və sosial-mədəni obyektlər istifadəyə verilmiş, iş yerləri açılmış, əhalinin sosial-iqtisadi vəziyyəti yaxşılaşmışdır.

### Ərazi və əhali

Rayonda 1 oktyabr 2018-ci il tarixə mövcud əhalinin sayı 106354 nəfər olmuşdur. Əhalinin sıxlığı hər kv kilometrdə 68.6 nəfərdir.

1 şəhər, 3 qəsəbə, 60 kənd yaşayış məntəqəsi olan rayonumuzda 1 şəhər, 3 qəsəbə, 56 kənd inzibati ərazi nümayəndəliyi və 29 bələdiyyə fəaliyyət göstərir. Əhalisinin 14145 nəfəri yaxud 13,3 faizi şəhər, 22227 nəfəri yaxud 20,9 faizi qəsəbə, qalan 69982 nəfəri yaxud 65.8 faiz kənd yerlərində yaşayır.

Qəbələdə 633 məcburi köçkün ailəsi və bu ailələrdə 2192 nəfər məcburi köçkün vardır.

2018-ci ilin doqquz ayı ərzində rayonumuzda 1262 körpə doğulmuş, 445 nəfər vəfat etmişdir. Vəfat edənlərin 4 nəfəri 1 yaşa qədər uşaqlar olmuşdur.

Həmin dövürdə 532 nikah və 89 boşanma qeydə alınmışdır.

### İqtisadiyyatın ayrı-ayrı sahələri üzrə məhsul buraxılışı

İlin ötən dövrü ərzində Qəbələ rayonunda iqtisadiyyatın əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilə nisbətən 31.6 faiz artaraq 165887 min manata çatmış,onun adambaşına həcmi isə 1197 manat təşkil etmişdir.

Məhsul və xidmətlərin 79,5 faizi istehsal sahələrinin, 20,5 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

Məhsul və xidmətlərin 21.2 faizi tikinti-quraşdırma, 17.3 faizi ticarət və xidmətlər sahələrində, 27.0 faizi sənayedə, 32.0 faizi kənd təsərrüfatı və balıqçılıq təsərrüfatında, 1.8 faizi nəqliyyat və anbar təsərrüfatında, 0,7 faizi isə informasiya və rabitə xidmətləri sahəsində olmuşdur.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sənayedə 96.4 faiz, kənd təsərrüfatı və balıqçılıqda 2,1 faiz, ticarət və xidmət sahəsində 8,9 faiz, nəqliyyat və anbar təsərrüfatında 3,3 faiz, informasiya və rabitədə 8.3 faiz, tikintidə isə 68,2 faiz artım müşahidə edilmişdir.

### Kənd təsərrüfatı

Rayonun iqtisadiyyatında taxılçılıq, meyvəçilik və heyvandarlıq aparıcı rol oynayır. Bununla yanaşı, təsərrüfatlarda bostan məhsulları, tərəvəz, üzüm və kartof da istehsal edilir.

Rayonda keçən ilin payızında 20100 hektar sahədə payızlıq və yazlıq taxıl əkilmişdir. Əkilmiş taxıl sahələrinə payız -qış dövrləində yüksək keyfiyyətli aqrotexniki qulluq göstərilmişdir.

2018-ci ilin doqquz ayında 64646,1 ton taxıl, 8215,2 ton kartof, 5508 ton tərəvəz, 16853,8 ton meyvə, 573,4 ton qarğıdalı, 71,9 ton bostan, 1800 ton şəkər çuğunduru, 80 ton tütün və 1162,9 ton üzüm istehsal olunmuşdur.

Heyvandarlıq məhsullarından 3461 ton diri çəkidə ət, 31422 ton süd,17217 min ədəd yumurta, 413 ton yun istehsal edilmişdir. 2017-cü ilə nisbətən ət istehsalı 3 ton və ya 0,1 faiz, yun istehsalı 1 ton və ya 0.2 faiz, yumurta istehsalı 8822 min ədəd və ya 205 faiz, süd istehsalı isə 306 ton və ya 1.0 faiz artmışdır.

Rayonun təsərrüfatlarında 2018-ci ilin doqquz ayında 46036 baş iribuynuzlu, o cümlədən 23169 baş inək və camış, 190161 baş xırdabuynuzlu malqara və 1135 baş donuz mövcud olmuşdur.

### Sənaye

Sənayenin əsasını meyvə şirələrinin, qida məhsullarının, tikinti materiallarının istehsalı, elektrik enerjisinin, qazın bölüşdürülməsi, suyun yığılması və paylanması sahələri təşkil etmişdir.

Sənayedə fəaliyyət göstərən müəssisələr tərəfindən 44828.2 min manatlıq və ya əvvəlki ilin müvafiq dövründən 2 faiz çox məhsul istehsal edilmişdir. Ümumi məhsul istehsalında və xidmətlərin göstərilməsində qeyri - dövlət sektorunun xüsusi çəkisi 88.6 faiz olmuşdur.

2018-ci ilin doqquz ayı ərzində Qəbələ rayonunda 33934.6 min manatlıq qida məhsulları emal olunmuş, 39621.0 min manatlıq məhsul istehsal edilmiş və 5207.2 min manatlıq sənaye xarakterli xidmətlər göstərilmişdir.

Sənaye müəssisələrində çalışan 1438 nəfərin orta aylıq nominal əmək haqqı 330 manat olmuşdur və bu da əvvəlki illə müqayisədə 2.3 faiz çox deməkdir.

### Tikinti

Oktyabr ayının 1-i vəziyyətinə rayonda əsas kapitala yönəldilmiş investisiyanın həcmi 36437.2 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 35305.1 min manat təşkil etmişdir.

İlin əvvəlindən ümumi sahəsi 16688 kv metr olan 201 fərdi ev tikilib istifadəyə verilmişdir. Həmin dövrdə 12204.0 min manatlıq əsas fondlar istifadəyə verilmişdir ki, bunun da 18.0 min manatını dövlət, 12186 min manatını isə qeyri-dövlət mülkiyyəti təşkil etmişdir.

### Mədəniyyət və turizm

2018-ci il oktyabr ayının 1-i vəziyyətinə rayonda 1 mədəniyyət mərkəzi, 26 kitabxana, 1 xalq teatrı, 31 klub müəssisəsi, 4 mədəniyyət və istirahət parkı, 3 muzey fəaliyyət göstərmişdir. Eləcə də 61-i dövlət əhəmiyyətli olmaqla 93 tarix-mədəniyyət abidəsi və 1 dövlət qoruğu vardır.

Ötən dövrdə rayonumuzun ərazisində 18 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərmişdir. Otaqlarının sayı 2304 olan həmin mehmanxanalarda və mehmanxana tipli müəssisələrdə bir gecə qalmaq üçün orta qiymət cəmi 106 manat təşkil etmişdir. Müəssisələrdə ilin doqquz ayında gecələmələrin sayı 254445, o cümlədən Azərbaycan vətəndaşları üzrə 78985, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üzrə 175460 gecə olmuşdur.

### Təhsil

Rayonda 4 ibtidai, 11 ümumi orta və 53 tam orta məktəb fəaliyyət göstərir.

Cari dərs ilində fəaliyyət göstərən 68 ümumtəhsil məktəbində 16150 nəfər şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 2600 müəllim məşğul olur. Məktəblərdə şagirdlər 485 kompüterdən istifadə edirlər.

Mövcud olan 22 məktəbəqədər uşaq müəssisəsində uşaqların sayı 780 nəfərdir.

Dövlət Peşə Təhsili Mərkəzində isə 408 nəfər gənc 8 ixtisas üzrə təhsil alır. Bu gənclərin təlim tərbiyyəsi ilə 15 nəfər müəllim və 13 nəfər istehsalat təlimi ustası məşğul olur.

### Səhiyyə

Oktyabr ayının 1-i vəziyyətinə rayonda 6 xəstəxana, bu xəstəxanalarda 330 çarpayı, 36 tibb və feldşer-mama məntəqəsi, 9 ambulator poliklinika müəssisəsi olmaqla, cəmi 51 tibb müəssisəsi fəaliyyət göstərir.

Bu müəssisələrdə 178 həkim, 461 orta tibb işçisi çalışır. Rayonda əhalinin hər 10000 nəfərinə 18,8 həkim, 48,6 nəfər tibb işçisi düşür.

### İstehlak bazarı

İlin doqquz ayı ərzində rayonun istehlak bazarında əhaliyə 37046 min manatlıq pullu xidmət göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 135680 min manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 6.5 faiz və ya 8325 min manat çoxdur.

Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində iaşə dövriyyəsinin xüsusi çəkisi isə 8.2 faiz və ya 11190 min manat təşkil etmişdir.

### Əmək haqqı, məşğulluq və işsizlik

2018-ci ilin ötən dövrü ərzində rayonda muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 344 manat təşkil etmiş və 2017-ci ilin həmin dövrünə nisbətən 18,6 faiz artmışdır.

Yüksək orta aylıq əmək haqqı elektrik enerjisi və qaz istismarında, dövlət idarəetməsində, müdafiə, sosial təminat, rabitə, maliyyə, təhsil sahələrində çalışan işçilərə məxsus olmuşdur.

İqtisadiyyatın bazar münasibətlərinə doğru inamla addımladığı bir vaxtda əhalinin sosial müdafiəsini, təşkil etmək, çox uşaqlı analara, qarabağ əlilərinə, digər az təminatlı ailələrə imtiyazlarını ödəmək, işsiz əhalinin bir hissəsinin işə və ictimai işlərə cəlb olunmasını təmin etmək rayon məşğulluq mərkəzinin əsas iş pirinsipi olmuşdur.

Rayon əmək və məşğulluq mərkəzində 1 oktyabr 2018-ci il tarixə 1319 nəfər işsiz vətandaş qeydiyyata alınmışdır. Qeydiyyata alınanlardan 210 nəfəri qadınlardır. Mərkəz tərəfindən işsiz kimi müraciət edən vətəndaşların öz arzusuna əsasən 518 nəfəri müxtəlif peşələr üzrə işə düzəldilmişdir. Onlardan 115 nəfəri qadındır.

2018-ci il 1 oktyabr vəziyyətinə Qəbələ rayonunda məşğul əhalinin sayı 50913 nəfər təşkil etmişdir. Məşğul əhalinin 12431 nəfəri muzdla işləyənlərdir. Muzdla işləyənlərin 7007 nəfəri yaxud 56.3 faizi dövlət mülkiyyətində 5424 nəfəri və ya 43.7 faizi isə qeyri dövlət mülkiyyətində fəaliyyət göstərir.

Məşğul əhalinin 75.5 faizi və ya 38482 nəfəri muzdsuz işləyənlərdir. Muzdsuz işləyənlərin 28053 nəfəri və yaxud 72.9 faizi kəndli təsərrüfatlarda, 22.8 faizi yaxud 8774 nəfəri fiziki şəxslər, yerdə qalan 1655 nəfəri və ya 4.3 faizi isə digər sahələrdə çalışanlardır.

### Yeni açılmış iş yerlərinin sayı

2003-cü ilin oktyabr ayının 1-dən 2018-ci il oktyabr ayının 1-nə dək rayonda 17789 yeni iş yeri açılmışdır ki, onun da 15590 daimi iş yerləridir.

### Əhalinin sosial müdafiəsi

İlin doqquz ayı ərzində Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsində 11294 pensiya işi üzrə 11475 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur ki, onların 7543 nəfəri yaşa görə, 2960 nəfəri əlliliyə görə, 791 ailənin 972 nəfərinə isə ailə başçısını itirməsinə görə pensiya alır. Pensiyaçılara təyin olunmuş aylıq ümumi pensiya məbləği 2097.1 min manat, 1 pensiya işi üzrə orta aylıq pensiya məbləği 185.68 manat təşkil etmişdir.

**Ayaz İSGƏNDƏROV,**
**rayon statistika idarəsinin rəisi.**